# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*




İCMAL

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ ELMİ TÖHFƏLƏRİ

MÜKAFATLAR

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

# YENİ TƏYİNAT

OKTYABR-
DEKABR 2020

## CƏFƏR MƏHƏRRƏMOV



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2010-2013-cü illərdə doktorantura səviyyəsində Belçikanın “Ghent University” ali təhsil müəssisəsindən məzun olmuş Cəfər Hüseyn oğlu Məhərrəmov Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədrinin müavini vəzifəsinə təyin edilib.

## SƏBUHİ RZAYEV



"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2009-2011-ci illərdə magistratura səviyyəsində Böyük Britaniyanın “York University” ali təhsil müəssisəsindən məzun olmuş Səbuhi Akim oğlu Rzayev Təhsil Nazirliyinin Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsinin müdir müavini vəzifəsinə təyin edilib.

OKTYABR-
DEKABR 2020

# YENİ TƏYİNAT

RÜBLÜK İCMAL



## PƏRVİZ HACIYEV

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2010-2015-ci illərdə "Urologiya" ixtisası üzrə rezidentura səviyyəsində Türkiyənin Ankara universitetindən məzun olmuş Pərviz Hacıyev TƏBİB idarə heyətinin sədrinin müvafiq əmri ilə M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanaya baş həkim vəzifəsinə təyin edilib.

# DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜLƏRİ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRIBLAR









"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" məzunlarından Şamil Mustafayev, Mehriban Vəliyeva, Nərmin Məmmədova, Elgün Yusibov, Tərlan Süleymanov, Orxan Kərimzadə, Əbdülhəmid Nağıyev də yaşadıqları ölkələrdə fəallıq göstərərək ölkəmizin haqq işini, Azərbaycanın qələbə əzmini, dinc sakinlərimizə, mülki obyektlərə qarşı erməni vəhşiliyini keçirdikləri yürüş mitinqlərində dünya ictimaiyyətinin diqqətinə çatdırıblar.










# DÖVLƏT PROQRAMI MƏZUNLARI İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN ÖN CƏBHƏSİNDƏ

Cari ilin sentyabr-noyabr aylarında ölkəmizdə baş verən Vətən müharibəsində "2007-2015 Dövlət Proqramı" çərçivəsində təhsil almış məzunlardan **Vüqar Qurbaov, Amil Hüseynov, Eldəniz Hüseynov, Aytac Məmmədova, Nazlı Calalzdə, Vasif Məmmədov, Zəka Abbasov, İlqar Binnət** könüllü olaraq müharibədə tibbi xidmət göstərmişlər.






## CEYLA SEYİDOVA

"2007-2015 Dövlət Proqramı" məzunu Ceyla Uran qızı Seyidova Vətən müharibəsi bitdikdən sonra, işğaldan azad edilmiş Füzuli rayonunun Mədəniyyət mərkəzinin dağıntıları qarşısında yerli və əcnəbi əsərləri ifa etmişdir.

## ÜLFƏT HACIYEV

27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində iştirak etmiş Dövlət Proqramı məzunu Ülfət Hacıyev könüllü olaraq cəbhəyə yollanmış, Laçın koridoru və Daşaltı uğrunda gedən döyüşlərdə iştirak edərək torpağlarımızın düşməndən azad olunmasında tarix yazanlardan biri olmuşdur.



THE JERUSALEM POST CORONAVIRUS US ELECTIONS ISRAEL NEWS WORLD NEWS MIDDLE EAST U.S. POLITICS


JPOST - OPINION
Jews backing Biden are the real 'freiers' - opinion


JPOST - ARAB ISRAELI CONFLICT
PIJ calls up forces as Palestinian's hunger strike passes 90 days: report


JPOST - OPINION
It is time for the Knesset to put the House in order

# Armenia has bonds with Turkey just as much as Azerbaijan

Turkey is not fighting Azerbaijan's war

By KAMAL JAFAROV OCTOBER 24, 2020 21:45



## KAMAL CƏFƏROV

Avstriyanın "The International Anti-Corruption Academy" universitetinin "Anti-korrupsiya elmləri" sahəsində məzun olmuş eyni zamanda, Milli Məclisin gənc deputatı Kamal Cəfərovun İsrailin "Yerusəlim Post" qəzetində Dağlıq-Qarabağ münaqişəsi, Türkiyənin bu münaqişədə dəstəyinin təzahürləri, Azərbaycan-İsrail münasibətləri barədə geniş məqaləsi dərc edilib.

# MƏZUNLARIN NAİLİYYƏTLƏRİ

"Biznesin idarəolunması" ixtisası üzrə Böyük Britaniyanın "Cambridge University" universitetindən olmuş **Xəyalə Eylazova** "Women in Finance Awards London 2020" yarışmasında 2020-ci ilin vəkili (Advocate of the year) mükafatını qazanıb.

*"Empower others to have a voice who are less privileged than you, take a leap, don't be afraid, be bold, and never lose your confidence."*




Böyük Britaniyanın "Manchester University" universitetində "2007-2015 Dövlət Proqramı" çərçivəsində "Dəyişim və inkişaf" ixtisası üzrə məzun olmuş, həmçinin İKT LAB-ın direktoru olan **Rauf Cabarov** layihələrin idarəedilməsi üzrə dünyanın ən nüfuzlu sertifikatı olan "Project Management Professional" sertifikatını qazanmışdır.



# STUDY UK ALUMNI AWARDS




Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi “Study UK Alumni Awards 2020”nin cari il üçün filanistlərini elan edib. "Social impact Award" təltifi üzrə namizədlərin arasında Böyük Britaniyanın "University of Bristol" universitetindən məzun olmuş Dövlət Proqramı məzunu **Sovqat Əzimova** da yer almaqdadır.

# MƏZUNLARIN ELMİ TÖHFƏLƏRİ

Advances in Biological Regulation 78 (2020) 100755

Contents lists available at ScienceDirect

Advances in Biological Regulation

journal homepage: www.elsevier.com/locate/jbior

The PKC universe keeps expanding: From cancer initiation to metastasis

Nilufar Rahimova[a], Mariana Cooke[a,b], Suli Zhang[a], Martin J. Baker[a], Marcelo G. Kazanietz[a,*]

[a] Department of Systems Pharmacology and Translational Therapeutics, Perelman School of Medicine, University of Pennsylvania, Philadelphia, PA, 19104, USA
[b] Department of Medicine, Einstein Medical Center Philadelphia, Philadelphia, PA, 19141, USA

ARTICLE INFO

Keywords:

ABSTRACT

Classical and novel protein kinase C (PKC) isozymes (c/nPKCs), members of the PKC family that

Yaponiyanın Kyoto universitetindən "Əczaçılıq" ixtisası üzrə məzun olmuş Nilufər Rəhimovanın "From cancer initiation to metastasis" tibbi məqaləsi "Elsevier" jurnalında dərc olunub. Keçid: https://www.sciencedirect.com/science/article/abs/pii/S221249262030066X

Türkiyənin Hacettepe Universitetində "Qulaq, burun, boğaz və baş boyun cərrahiyyəsi" ixtisası üzrə rezidentura keçmiş Cavid Cabbarzadənin Rinoplastika ilə bağlı növbəti texnikası Amerikanın ən prestijli jurnallarından biri olan "Aesthetic Surgery Journal" da çap olunmaq üçün qəbul olunub.

AESTHETIC SURGERY JOURNAL

**Aesthetic Surgery Journal - Decision on Manuscript ID ASJ-20-0940.R1**

20-Nov-2020
Mucoperichondrial spreader flap application for middle vault reconstruction in rhinoplasty: A review of 857 cases
ASJ-20-0940.R1

Dear Dr. Cabbarzade:

Your manuscript, referenced above, has been evaluated by our editors and independent reviewers. I am happy to inform you that the manuscript has been accepted for publication in Aesthetic

Journal of Hematopathology
https://doi.org/10.1007/s12308-020-00416-6

CASE REPORT

**Leukocytoclastic vasculitis as a previously unreported paraneoplastic manifestation of acute lymphoblastic leukemia in adults**

Rashad Ismayilov[1] · Tahmaz Haziyev[2] · Deniz Ates Ozdemir[3] · Arzu Saglam[3] · Yahya

Received: 4 September 2020 / Accepted: 22 September 2020
© Springer-Verlag GmbH Germany, part of Springer Nature 2020

Dövlət Proqramı çərçivəsində Türkiyənin Ege universitetindən məzun olmuş Rəşad İsmayılovun tibbi məqaləsi "Journal of Hematopathology" jurnalında dərc olunub. Keçid: https://link.springer.com/article/10.1007/s12308-020-00416-6

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*

---

## ŞƏHRİYAR FƏTULLAYEV



"***Fəxri Fərman"***

Dövlət Proqramı məzunu, eyni zamanda TƏBİB-in İdarə Heyəti sədrinin müşaviri Şəhriyar Fətullayev döyüş əməliyyatları zamanı tibbi hərbi hissədə göstədriyi fəaliyyətinə görə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən Fəxri Fərmanla təltif olunub.

## QUMRAL ƏLƏKBƏROVA

## FƏRRUX SƏDİROV



FƏXRİ FƏRMAN

Mərkəzi Qan Bankının müdiri

*Ələkbərova Qumral İlham qızı*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatları zamanı Müdafiə Nazirliyinin tibbi hərbi hissə və müəssisələrinin işinin fasiləsiz rejimdə təmin olunmasında, yaralılara tibbi yardımın təşkilində verdiyi layiqli töhfəsinə görə

TƏLTİF OLUNUR

Müdafiə Nazirliyinin
Tibb Baş İdarəsi rəisinin vəzifəsini icra edən

tibb xidməti polkovniki Elxan İbrahimov

"10" dekabr 2020-ci il

Dövlət Proqramı məzunları Qumral Ələkbərova və Fərrux Sədirov Vətən müharibəsində döyüş əməliyyatları zamanı yaralılara verdikləri layiqlı töhfələrə görə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Tibbi Baş İdarəsi tərəfindən Fəxri Fərmanla təltif olunublar.



FƏXRİ FƏRMAN

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi
şimal ərazi bölməsi üzrə iş şöbəsinin korrdinatoru

*Sədirov Fərrux Cəbrayıl oğlu*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatları zamanı Müdafiə Nazirliyinin tibbi hərbi hissə və müəssisələrinin işinin fasiləsiz rejimdə təmin olunmasında, yaralılara tibbi yardımın təşkilində verdiyi layiqli töhfəsinə görə

TƏLTİF OLUNUR

Müdafiə Nazirliyinin
Tibb Baş İdarəsi rəisinin vəzifəsini icra edən

tibb xidməti polkovniki Elxan İbrahimov

"10" dekabr 2020-ci il

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*

## FƏRİD ABBASOV

""*Diaspor fəaliyyətində xidmətə görə"*

Dövlət Proqramı məzunu Fərid Abbasov Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunub.






# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

**OKTYABR-DEKABR 2020**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Nərmin Bağırova**
**(narmin.baghirova@edu.gov.az)**

**Günel Orucova**
**(gunel.orucova@edu.gov.az)**

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu